1

2020

İSSN-0207-4710

# GÖYƏRÇİN



RAFİQ YUSİFOĞLU

## DÖN ZƏFƏRLƏR İLİNƏ

Xoş gəlmisən, təzə il,
Bizim odlar elinə!
Ümidimiz səndədi, -
Dön zəfərlər ilinə!

Sənin kimi nə qədər
İllər yola salmışıq.
Ulu yurda kənardan
Baxa-baxa qalmışıq.

Nə vaxtdandır yol çəkir,
Qərib dağların gözü...
Qıyma ki, kömür olsun
Ocağın qızıl közü...

Zəngilanın üstündən
Qara yellər əsibdir.
Şuşa, Laçın, Kəlbəcər,
Yəqin bizdən küsübdür...

Cəbrayılım inləyir,
Haray çəkir Füzulim.
Kimin yadından çıxar
Bu məşəqqət, bu zülüm?

Bizsiz qalan yurd yeri,
Qəribsəyib yamanca...
Qalxmalıyıq ayağa,
Yaddan kömək umunca...

Bizsiz qalıb Həkəri,
Bizsiz qalıb Bərgüşad.
İldırım şaqqıldasın,
Gəlsin bir dəli gürşad.

Düşməni çör-çöp kimi
Aparsın dəli sellər.
Qayıtsın yuvasına
Bizim obalar, ellər...

## SULU QAR

Bəyaz rəngə bürünsün,
Bu dağlar istəyirəm!
Neynirəm sulu qarı,
Susuz qar istəyirəm!

Ay qış, bizə qar gətir,
Gözlərimiz sevinsin...
Dağlarımız sevinsin,
Düzlərimiz sevinsin!

Bir gör biz neçə ildi
Həsrətik qar üzünə?
Niyə bu qədər yerdə
Yer tapmır qar özünə?

Gözləri yolda qoydu
Nə qədər məhsulu qar.
Ağarmaq istəyənə
Neyləyəcək sulu qar?

Ay qış, sən necə qışsan,
Qarın yağırsa sulu,
Şaxtan, çovğunun yoxsa,
Sən çıx get üzü sulu!

## HİRSLİ KÜLƏK

Hirsli külək hər şeyi
İstəyir ki, dağıda.
Üç-dörd gün belə əssə,
O, aparar dağı da!

## OCAĞIM, KÖZÜM VƏTƏN

Bu ölkə bizim ölkə,
Bu vətən bizim vətən!
Qürbət eldə ən şirin
Söhbətim, sözüm vətən!

Vurulmuşam sənə mən,
Qürur dolur sinəmə,
Seyr etdikcə səni mən,
Yorulmaz gözüm, vətən!

Selin damarımda qan,
Yelin ciyərimdə can,
Sənə gərəksə qurban,
Olaram özüm, vətən!

Göylərində bir quşam,
Hüsnünə vurulmuşam,
Sənsiz bir qara daşam,
Ay canım, gözüm vətən!

Yurdumun günəşiyəm,
Arzulara beşiyəm,
Qoymaz məni üşüyəm,
Ocağım, közüm vətən!



## BULUDUN ALTI VƏ ÜSTÜ

Yarıb qalın buludları
Təyyarə enir aşağı.
Biz yerə yaxınlaşdıqca,
Öləziyir gün işığı...

Bu mənzərəni görüncə
Bir-birimizə baxışdıq.
Buludun üstü günəşli,
Buludun altı yağışlı...

## TƏYYARƏDƏ SÖHBƏT

Təyyarədən aşağı bax,
Gör nə qədər bulud var!
Qarlı düzü xatırladır.
Bu qalın, sıx buludlar!

Adam lap həvəsə düşür,
Onlara göz qoyunca.
Düşüb buludun üstünə
Bir gəzəsən doyunca!

-Elə yaxşıca qoyasan
Gildir-gildir ağlaya!
Buludun nə gücü var ki,
Bizi göydə saxlaya!



## KƏLBƏTİN DİŞLƏR

Mənim iti dişlərim
Elə bil kəlbətindi.
Bilən bilir, onlardan
Xilas olmaq çətindi...

Dişlərim işə düşüb,
Dağıdıram, sökürəm.
Bir-bir qarğıdalının
Dişlərini çəkirəm...

## YER BİZİM YUVAMIZDI

Yer bizim yuvamızdı,
Küncü yoxdu yuva tək!
Onun hər guşəsində
Xoşbəxt olaq biz gərək!

Allah belə edib ki,
Güldürsün yer üzünü...
Heç kəs qərib sanmasın
Yer üzündə özünü...

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. №